# İtirən yalnız Ermənistan olacaq

"Brüsseldə ABŞ Dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Ermənistanın baş naziri Paşinyan arasında keçirilən görüş deməyə əsas verir ki, bu qüvvələr Ermənistanı öz riyakar və məkrli oyunlarının iştirakçısına çevirməyə müvəffəq olublar. Bunu səslənən bəyanatlar və göstərilən təşəbbüslərdən də aydın görə bilirik".



Bu fikirləri Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında deyib. Deputat bildirib ki, görüşdə Avropa İttifaqı Ermənistana qarşıdakı dörd ildə 270 milyon avro, ABŞ isə 65 milyon dollar yardım ayıracağı ilə bağlı razılığa gəlib. Bu pulların isə elə-belə ayrılmadığı hər kəsə aydındır.

K.Bayramov qeyd edib ki, ABŞ və Aİ ən yüksək səviyyədə Azərbaycanı əmin etməyə çalışıblar ki, Ermənistanla bağlı həyata keçirilməsi nəzərdə tutulan tədbirlər ölkəmizə qarşı yönəlməyib. Amma bu iddiaların Azərbaycanı qane etməməsi üçün ciddi əsaslar var. İstənilən halda hər şey qarşıdakı günlərdə bəlli olacaq. Ümid edək ki, verdikləri sözü tutaraq Ermənistanı yenidən revanşizmə sürükləməyəcəklər. Çünki Brüssel görüşündən əvvəl ABŞ Dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Prezident İlham Əliyevə zəng edərək ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşün təfərrüatlarını müzakirə ediblər. Dövlət başçısı həm ABŞ Dövlət katibi, həm də Avropa Komissiyasının rəhbəri ilə apardığı danışıqlar zamanı öz mövqeyini qəti şəkildə bəyan edib.

Deputat diqqətə çatdırıb ki, hazırda Ermənistan Fransa vasitəsilə silahlanır, həmçinin bu ölkədə Rusiya əleyhinə siyasi isterika daha da alovlandırılır. "Hər halda bu gün Qərbin Ermənistanla bağlı oynadığı oyun bu ölkəyə nəinki inkişaf vəd edir, əksinə, vəziyyətinin daha da pisləşməsinə səbəb olur. Prezident İlham Əliyev Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşündə xüsusi səsləndirdi ki, bu gün Azərbaycan-Türkiyə birliyinin daha da gücləndirilməsi önəmlidir. Hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir. Bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər", - deyə o əlavə edib.

K.Bayramov xatırladıb ki, Prezident İlham Əliyev bəzi qüvvələrin narahatlıqlarının səbəblərini də açıqlayıb: "Azərbaycanın tarixi zəfəri, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi bəzi qüvvələri narahat edib... Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik" söyləyən cənab İlham Əliyev onu da vurğulayıb ki, o vaxtdan bu günədək bizə olan təzyiqlər durmadan davam edir.

Müsahibimiz qeyd edib ki, bu gün regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün sülh müqaviləsinin imzalanmasına böyük ehtiyacın olduğu bir zamanda bəzi siyasi dairələrin vəziyyəti gərginləşdirmək üçün cəhdlər etmələri birmənalı qarşılana bilməz: "Azərbaycan dövləti hər bir cəhdin, təxribatın qarşısını qətiyyətlə alır. Şuşa Bəyannaməsində də bu məqam öz əksini tapır ki, Türkiyə və Azərbaycandan hər hansı birinə üçüncü dövlət tərəfindən təhlükə olarsa, bu ölkələr bir-birini qorumaq üçün birgə addımlar atacaqlar".

K.Bayramov əlavə edib ki, Ermənistanın şərti sərhəddə möhkəmləndirilməsi, Qərb ölkələrinin Qafqazda sülhü pozmaq cəhdləri İrəvan üçün yaxşıya doğru heç nəyi dəyişən deyil. Növbəti müharibənin olması, sadəcə, zamanı keçmiş silahların indi də Ermənistan ərazisində utilizasiyası ilə nəticələnəcək. Bu cəhdlərin hər biri regionda sülhə və sabitliyə maneədir ki, Azərbaycan da məhz buna qarşıdır. Ermənistan anlamalıdır ki, Qərbin ikili standartları dünyanın heç bir ölkəsinə sülh və firavanlıq gətirməyib. Regionu risk altında qoymağa çalışan bəzi dövlətlərin İrəvanda yaratdığı illüziyalar təhlükəli reallıqla sona çatacaq. İtirən isə yalnız Ermənistan olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

---

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.6.